# COP29 çərçivəsində Emin Əmrullayevin iştirakı ilə mətbuat konfransı keçirilib

**Noyabrın 18-də COP29 çərçivəsində keçirilən İnsan İnkişafı/ Uşaq və Gənclər/Sağlamlıq/Təhsil tematik Günündə mətbuat konfransı təşkil edilib.**

Mətbuat konfransında elm və təhsil naziri Emin Əmrullayev, səhiyyə naziri Teymur Musayev, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev iştirak ediblər.

Yerli və xarici media nümayəndələrinin iştirakı ilə keçirilən mətbuat konfransında nazirlər onlara ünvanlanan çoxsaylı sualları cavablandırıblar.

Emin Əmrullayev öz növbəsində Azərbaycanda son altı ildə iqlim dəyişikliyi və ekoloji maarifləndirmənin milli kurikuluma inteqrasiyasını təmin etmək üçün addımlar atıldığını diqqətə çatdırıb.

Nazir qeyd edib ki, bu hərtərəfli yanaşma şagirdlərə insan fəaliyyətinin ətraf mühitə təsirini, bərpa olunan resursların əhəmiyyətini və ekosistemimizi qorumaq yollarını anlamağa kömək edir.

Azərbaycan müəllimi.- 2024.- 23 noyabr, №43.- S.2.